# Milyonlarla azərbaycanlıya dil qadağası

## Qulu Məhərrəmli: "Güneydə ana dilində məktəblərin açılması..."



**"Ölkə Prezidentinin yerli telekanalların əməkdaşlarına verdiyi müsahibə bir neçə cəhətdən maraq doğurur. Bu müsahibədə ilk növbədə dünyada baş verən proseslərlə bağlı mühüm mesajlar, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən quruculuq və bərpa işləri, ölkə daxilində ictimai-siyasi vəziyyət və digər aktual məsələlərlə yanaşı, əlbəttə ki, ana dili problemi də xüsusi diqqət çəkir".**

Bunu "Cebheinfo.az"-a açıqlamasında Əməkdar jurnalist, professor Qulu Məhərrəmli Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsindən danışarkən deyib.

O bildirib ki, son illərdə Prezidentin imzaladığı sənədlər, eləcə də çıxış və müsahibələrində ana dili ilə bağlı səsləndirdiyi fikirlər bu mövzunun daha açıq, geniş şəkildə şərhi kimi qiymətləndirilə bilər:

"Burada məsələyə bir neçə aspektdən yanaşmaq mümkündür. İlk növbədə ana dilinin düzgün işlədilməsi, dilin statusu, dil daşıyıcıları ilə dil arasındakı münasibət, ana dilinə sevgi, onun qaydalarının qorunması və inkişaf etdirilməsi, eləcə də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların öz ana dillərinə münasibəti və bu münasibətin dəyişdirilməsinə yönəlmiş çağırışlar ön plana çıxır.

Dilin daxili inkişafı, alınma sözlər və onların işlənməsi ilə bağlı qaldırılan məsələlər isə xüsusi araşdırma tələb edən ciddi mövzular sırasındadır. Bu gün Azərbaycan dili müxtəlif basqılara məruz qalır. Burada həm xarici dillərin təsiri, həm ictimai-siyasi proseslər, həm də texnologiyanın inkişafı ilə dilə daxil olan yeni terminlər və onların istifadəsi ilə bağlı problemlər mövcuddur. Bütün bu məsələlər Prezidentin müsahibəsində geniş şəkildə əksini tapıb".

Professor qeyd edib ki, ən diqqətçəkən məqamlardan biri də xarici ölkələrdə yaşayan azərbaycanlıların ana dilində təhsili məsələsidir:

"Xüsusilə Cənubi Azərbaycanda ana dilində məktəblərin yaradılması mövzusu kifayət qədər açıq və aydın şəkildə ifadə olunub. Bu istiqamətdə atılacaq addımların vacibliyi bir daha vurğulanır. Qeyd etmək lazımdır ki, Prezident bu məsələlərə əvvəllər də dəfələrlə ciddi şəkildə toxunub.

Bütün bunların hamısı nəyə gətirib çıxardır? Ana dili milli varlığın və milli kimliyin əsas göstəricisidir. Bu, birmənalı şəkildə belədir. Digər tərəfdən, dil daşıyıcıları öz dillərinin saflığını qoruyub saxlamalıdır. Dil kənar təsirlərin güclü təzyiqi altına düşməməlidir. Prezidentin də vurğuladığı kimi, bu cür proseslər nəticəsində dil zamanla özünəməxsusluğunu itirə, sıradan çıxa bilər. Məhz buna görə də dilin qaydalarının qorunması son dərəcə önəmlidir.

Ümumilikdə, dövlət başçısı səviyyəsində dil məsələlərinin bu qədər aydın və konkret şəkildə gündəmə gətirilməsi olduqca əhəmiyyətlidir. Televiziyalar, radiolar, mətbuat orqanları, xüsusilə də xəbər saytları bu məsələlərə qarşı daha həssas yanaşmalıdırlar. Çünki ana dili milli varlığımızın ifadəsidir və onu qorumaq hər bir qələm sahibinin və vətəndaşın borcudur. Prezidentin bu müsahibəsi də cəmiyyəti məhz buna çağırır".

**Əfsanə Rəcəb**